***Ədəbiyyat:***
1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2018.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, 2014.
3. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001
4. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasinin Qanunu. Bakı, 2001.
5. “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

## UĞURLU KARYERADA KEYFIYYƏTLI TƏHSILIN ROLU

*Əliyev Kamran*
*Elmi rəhbər:Nuranə Abbasova -Zeynalova*
*Mingəçevir Dövlət Universiteti (Azərbaycan)*

Hər bir ölkənin sosial-iqtisadi inkişafı həmin ölkədə insan kapitalının inkişaf səviyyəsindən asılıdır. Son dövrdə dünya iqtisadiyyatında müşahidə olunan texnoloji dəyişikliklər şəraitində rəqəmsal bacarıqlara malik, yeni texnologiyaları aktiv tətbiq edə bilən, gələcək illərdə dünyada artan rəqabətə hazır olan yüksəkixtisaslı insan kapitalının formalaşdırılması xüsusi aktuallıq kəsb edir.

Təhsildə keyfiyyət dedikdə beynəlxalq səviyyədə keyfiyyət göstəricilərinin təhsil sferasında əks etdirilməsi anlaşılır. Təhsilin inkişafı və iqtisadiyyatın qloballaşması dünya səviyyəsində təhsilin önəminin artmasına səbəb olmuşdur. Bu dəyişiklik ölkələri rəqabətə davamlı bir təhsil sistemi yaratmaq və beynəlxalq səviyyədə qəbul edilən təhsil standartları qəbul etməyə məcbur etmişdir. Əksər ölkələrdə keyfiyyətə zəmanət mexanizmlərinin inkişafı üçün müəyyən qurumlar yaradılmışdır. Təhsilin keyfiyyəti bir universitet sistemində akademik həyatın bir hissəsini təşkil edən bütün funksiyaları və fəaliyyətləri əhatə edən bir konsepsiyadır.

Təhsil sistemi hazırda bir çox inkişaf etmiş ölkələrin təhsil sistemi ilə rəqabətə girə bilmək imkanlarına malik olmasına baxmayaraq, işin keyfiyyətini, rəqabətə davamlılığını daha da artırmaq üçün dövlətin təhsil siyasəti cəmiyyət tərəfindən geniş dəstəklənməli, təhsilin inkişafı və keyfiyyət göstəricilərinin yüksəlməsi üçün lazımi resurslar ayrılmalı, onlardan effetkiv istifadənin mexanizmi yaradılması, təhsil sistemi hərtərəfli modernləşdirilməlidir.

Azərbaycanda təhsilinin keyfiyyətli olub-olmaması həmişə aktual mövzulardan sayılıb. Çünki həm dövlətin, həm cəmiyyətin, həm də təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Elə bu səbəbdəndir ki, təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır.

Müasir dünyamızda təhsil sürətlə dəyişən, yeni inkişaf tendensiyaları ilə zəngin sahələrdəndir. Təhsil sahəsində inkişafa nail olmaqdan ötrü bu tendensiyaların davamlı izlənməsi, çevik addımların atılması çox vacibdir. Azərbaycan Prezidenti də təhsillə bağlı dünyada gedən müsbət tendensiyalara daim fikir verilməsini vacib sayır. İnkişaf etmiş ölkələrdə aparılan islahatların dərindən təhlil olunmasını, uyğun təcrübələrin Azərbaycanda tətbiqini mühüm vəzifə kimi qarşıya qoyur.

Ölkə başçısı tərəfindən bir neçə il bundan öncə keyfiyyət nəticələrinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan, iqtisadi cəhətdən dayanıqlı təhsil sistemini yaratmaq məqsədilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tətbiqi barədə sərəncam imzalanıb. Sözügedən sənədin məzmununda insan kapitalının inkişafının iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil etməsi qeyd edilib. Belə ki, ölkənin inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir.

Dövlətimizin başçısı İlham Əliyevin 16 noyabr 2018-ci il tarixli "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın, 23 noyabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiqlənməsi haqqında Sərəncamları da uğurlu iqtisadi tərəqqinin kadr hazırlığının beynəlxalq standartlar səviyyəsinə uyğunlaşdırılmasından asılı olduğunu bir daha təsdiqləyir. Ali təhsil sisteminin rəqabətliliyinin artırılması öz növbəsində beynəlxalq əlaqələrin inkişafını, dünya təhsil sisteminə inteqrasiyanın sürətləndirilməsini bir tələb kimi ortaya qoyur. Təcrübə mübadiləsinin genişləndirilməsinin qarşıya qoyulan məqsədlərə lazımi səviyyədə nail olmağa böyük stimul verdiyi əldə olunan nəticələrdən də aydın görünür. Ölkə Prezidenti İlham Əliyevin təsdiq etdiyi gənclərin xarici ölkələrdə təhsili ilə bağlı Dövlət Proqramının uğurlu icrası da bu kimi məqsədlərə xidmət edir. Artıq bu Proqramın icrası müddətində 5 min tələbənin xarici ölkələrdə təhsili təmin edilmişdir. Onlar təhsillərini başa vurub, Vətənə qayıtmaqla əldə etdikləri təcrübələr əsasında ölkəmizin daha da inkişafına, tərəqqisinə öz töhfələrini verirlər.

Ölkə Prezidenti İlham Əliyevin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə", "Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamları, həmçinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Fərmanı da kadr hazırlığını stimullaşdıran addımlar sırasındadır. Bu sənədlər ümumilikdə 110 min tələbəni əhatə etdi.

Bir sözlə, yenilikçi, müasir dünyagörüşünə malik gənclər qarşıya qoyulan hədəflərin gerçəkləşməsində fəal iştirak etmək, öz potensial imkanlarını ortaya qoymaq imkanlarına malikdirlər. Cənab İlham Əliyev, eyni zamanda, bu çağırışı edir ki, yaşlı nəsil öz təcrübəsini bölüşməlidir: "Eyni zamanda, təbii ki, gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır."

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında gənclərə bu çağırışı etmişdir: "Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən

sizə inanıram, güvənirəm.”

Əldə etdiyimiz təhsil səviyyəsi ilə iş tapmaq ehtimalımız arasında birbaşa əlaqə var. ABŞ Əmək Statistikası Bürosu 2019-cü ildə məlumat verdi ki, təhsilin hər bir yüksək səviyyəsində işsizlik səviyyəsi aşağı düşür. Məsələn, ən yüksək təhsil səviyyəsi orta məktəbi bitirən insanlarda işsizlik nisbəti 8,3 faiz, universitet məzunlarının işsizlik səviyyəsi isə 4,5 faiz təşkil edib.

Eyni zamanda təhsilin vasitəsilə ölkəmizdə intellektual potensialın artırılması ilə yanaşı, əmək bazarındakı tələbatların da nəzərə alınmasını zəruri hesab edir. "Xüsusilə ali məktəblərə qəbul mərhələsində bütün bu məsələlər dərindən təhlil edilməlidir. Bizə hansı sahə üzrə nə qədər mütəxəssis lazımdır? Humanitar sahədə fəaliyyət göstərəcək nə qədər mütəxəssis lazımdır? Nə qədər texniki peşə sahibləri lazımdır? ...Bizim təhsilimizin əsas istiqamətləri ölkəmizin sənaye və iqtisadi inkişafı ilə tam bağlı olmalıdır”.

Karyera ilk növbədə peşəkar bacarıqların toplanması və səmərəli həyata keçirilməsidir. Onların uğurlu həyata keçirilməsi müsbət şəxsi keyfiyyətlərlə birləşərək, yüksəlişi təmin edir. Biliklərin praktikaya çevrilməsi onlara yeni keyfiyyət vermək deməkdir, onları konkret peşə vəziyyətində tətbiq etmək məqsədəuyğundur. Həyatın müasir ritmində ali (universitet) təhsilin dəyərini dərk etmək lazımdır.

Universitet təhsilinin əsas məqsədi (uğurlu karyera qurmaq baxımından) aşağıdakı kimi müəyyən edilə bilər: peşəkar sahədə praktiki problemlərin ən rasional həlli üçün hazırlanmış mütəxəssis üçün yüksək keyfiyyətli peşəkar hazırlığın təmin edilməsi. Bu vəzifə ilə əlaqədar aşağıdakı sual yaranır. Məzunun peşə fəaliyyətində əldə edilmiş biliklərin səmərəli tətbiqini necə təşkil etmək olar? Etiraf etmək olar ki, yüksək akademik göstəricilərə malik olan tələbənin əldə etdiyi bilikləri praktik fəaliyyətdə tətbiq etmək çətindir. Təlim prosesində tələbə nəzəri materialı yaxşı mənimsəməli, həm də onun praktikada tətbiqi imkanlarını dərk etməli və mənimsəməlidir. Nəzəri bilik və praktiki bacarıqlar bir-biri ilə sıx bağlıdır. Xüsusi bilik olmadan düzgün yanaşma tapmaq və praktiki problemi həll etmək mümkün deyil. Tədris materialı nəzəri müddəaları və onların praktikada tətbiqinin rasional yollarını birləşdirməlidir. Tələbəyə praktiki problemlərin həllinə yönəlmiş hərəkətləri tərtib etməyi və əlaqələndirməyi öyrətmək, təfəkkürün inkişafına kömək etmək lazımdır. Bunun üçün nəzəri biliklərin praktiki fəaliyyətə ötürülməsini təmin edən prinsip və üsullar sistemini hazırlamaq, sınaqdan keçirmək və həyata keçirmək lazımdır.

Beləliklə, uğurlu karyeranın vacib komponenti universitet təhsilidir. İnsanın hansı elmi sahədə və ya peşə fəaliyyəti ilə məşğul olmaq istədiyini müəyyən etmək vacibdir, nəinki modaya xərac vermək və ali təhsil almaq lazımdır. Ali təhsil müəssisəsini düzgün seçmək üçün insanın öz qabiliyyətlərini, inanclarını, maraqlarını, istəklərini və imkanlarını aydın şəkildə bilmək lazımdır.

Bu istiqamətdə son illərdə Universitetimizin inkişaf dinamikası nəzərəçarpan dərəcədə dəyişmişdir. Bu dəyişimin əsas məqsədi regionun aparıcı universitetlərindən biri olmaq, əmək bazarı üçün ixtisaslı kadrlar yetişdirməkdir. Heç də təsadüfi deyildirki universiteimizin hədəfləri müasir təhsil, doğru seçim, uğurlu karyeradır.